Üç nöqtə ● 20 fevral 2019 ● № 034 (4421) ●

PRİZMA

# “Pensiya artımı 140 min əlilə şamil ediləcək”

## SAHİL BABAYEV: “ŞƏHİD VƏRƏSƏLƏRİNƏ 11 MİN MANATLIQ BİRDƏFƏLİK ÖDƏMƏLƏRİN VERİLMƏSİNİN GECİKDİRİLMƏSİ ŞƏHİDLƏRƏ BAĞLI SƏNƏDLƏRİN TOPLANMASI İLƏ BAĞLIDIR”



**“PREZİDENT** İlham Əliyev ötən ilin avqustunda 20 milyon manat, bu ilin investisiya proqramında isə 55 milyon manat vəsait ayıraraq, təkcə son 6 ay ərazində 75 milyon vəsaiti məhz Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin mənzil təmiantına yönəltdi”. Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Qarabağ müharibəsi iştirakçıları və əlillərlə görüşü zamanı bildirib. S.Babayev qeyd edib ki, ötən il 626 mənzil müharibə əlilləri və şəhid ailələrinə təqdim olunub: “Eyni zamanda, bu il üçün bu kateqoriyadan olan şəxslərə veriləcək nəzərdə tutulan mənzillərin sayı 800-dən artıq müəyyən edilib. İl ərzində 800 mənzilin əlil və şəhid ailələrinə verilməsilə onların daha da yaxşılaşdırılmasına nail olunacaq. Digər tərəfdən, ötən il 250-dək avtomobil müharibə əlillərinə təqdim olundu. Bu il üçün təqribən 180-nə yaxın avtomobil də müharibə əlillərinə veriləcək. Milli qəhrəmanlara verilən təqaüdün məbləği artırılaraq 1500 manata çatdırıldı. Digər tərəfdən, müharibə əlillərinin övladlarının ödənişli əsaslarla olan fakültələrə daxil olduğu halda, onların ödənişsiz oxuması qərarı verildi. Həqiqətən də hər istiqamətdə dövlətin qayğısı hiss olunur”.

**Nazir qeyd edib ki, hazırda 52 min müharibə veteranı 55 manatlıq müvainət alır:** “Əmək pensiyası alan müharibə veteranlarına isə sığorta hissəsinə 11 min manat indeksasiya edilərək ödənilir. Təxminən 20 minə yaxın insan əmək pensiyasının içərisində bu müavinətləri də alır. Qarabağ müharibəsi, Çernobl və digər bu kateqoriyadan olanalara I qrup üçün 182 manat, II qrup üçün 158 manat, III qrup üçün 121 manat müəyyən edlib. Bunlar pensiyadan əlavə olaraq ödənilir”.

**S.Babayevin sözlərinə görə, ölkə başçısının minimum pensiya məbləğinin artırılması ilə bağlı son qərarı parlamentə müzakirə ediləcək:** “Ölkə başçısının son qərarı ilə minimum pensiya 160 manatdək qaldırılmasına dair qanunvericilikdə dəyişiklik edilməsi barədə qərar qəbul olunub. Orada da 40 fazilik artım bütün pensiya alan insanlara, o cümlədən 140 min əlilliyi olan şəxsin pensiyasına təsir edəcək”.

**Nazir qeyd edib ki, hazırda 40 ana növü olaraq sosial müavinət və təqaüdlər var:** “Onların alt növlərində rəqəm 80-ni keçir. Burada da optimallaşdırılma aparılması ilə bağlı ölkə başçısı tərəfindən qarşımızda tapşırıqlar qoyulub. Son bir neçə ay ərazində aparılan işləri, yeni təklifləri, addımları maliyyə vəsaiti baxımından təhlil etsək, 135 milyon manat 11 min manatlıq birdəfəlik ödənişlər üçün, 335 milyon manat minimum əməkhaqqı, 41 milyon manat minimum pensiya, 75 milyon manat mənzil təminatı üçün xərclənib, ümumilikdə 600-700 milyon manat vəsait ayrılıb. Bütün bu qərarlar isə ölkənin sosial müdafiəsinin gücləndirilməsinə yönəldilib”.

**S.Babayevin sözlərinə görə, bu gün sosial müavinət alan şəxslərin sayı 500 mindir:** “Onların əhəmiyyətli kəsimi müharibə veteranları, əlilliyi olan şəxslərdir, milli qəhrəmanlar, şəhid ailələridir”.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev şəhid vərəsələrinə 11 min manatlıq birdəfəlik ödəmələrin verilməsinin gecikdirilməsi ilə bağlı səsləndirilən narazılıqlara münasibət bildirib. Nazir Qarabağ müharibəsi əlilləri və veteranları, şəhid ailələri, tərxis olunmuş hərbçilərin bir qrupu ilə görüşündə gecikmənin şəhidlərə bağlı sənədlərin toplanması ilə bağlı olduğunu deyib.

**Nazir bildirib ki, məsələ ilə əlaqədar ötən ilin oktyabr ayının sonunda ilkin məlumat toplandı və işlərə start verildi:** "Müraciətlər toplanandan sonra noyabrdan etibarən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Dövlət Sığorta şirkəti ilə iş aparıldı. Ümumi siyahının təsdiq olunması üçün məlumatlar bir aya toplanıldı. Yekun qərarda 2700-dən artıq insanın sənədləri bir araya gətirildi".

**Proqramın hazırlanması üçün prosesin 3 ay çəkdiyini xatırladan S. Babayev qeyd edib ki, 3000-ə yaxın insanın sənədlərin toplanması asan məsələ deyil:** "Biz hər bir sənədə bir-bir baxırdıq. Daxili İşlər Nazirliyi arxivlərindən 461 polis şəhidinin məlumatlarını bizə təqdim etdi. Bunu ona görə açıqlayıram ki, adətən pərdə arxasında olan iş tam olaraq məlum olmur. Ölkə prezidenti İlham Əliyev Nazirlər Kabinetinin yanvar ayında keçirilən iclasında çıxışı zamanı sənədlərin toplanıldığını və işlər yekunlaşdıqdan sonra qərar veriləcəyini bəyan etmişdi".

***Ruslan***